***"Dünyanın tən ortasında əzəldən yaranmış Göy Təpə ucalır. Göy Təpənin zirvəsində isə Bay Dirək boy atır. Həmin Bay Dirəyin dörd budağı göy qübbəsinin bütün qatlarını yarıb keçir. Göyün qatlarını saxlayan Bay Dirəyin budaqlarıdır. Bay Dirəyin kökü Yerin bütün qatlarını yarıb keçərək dərin sulara qədər işləyir...***

# Bir qazax şamanının söylədikləri...



...Bəyim, nahaqdan günaha batanlar göy göyərçinə dönüb Dəryanın ortasındakı adaya uçurlar. Orada qüllənin başında otuz il qadın cildində yaşayıb övladı olmayan sonsuz qadınlara övlad bəxş edərlər.

...Axsaq qız qırx qızdan yeganə diri qalanıdır. O, yeraltı ölülər səltənətindən şamanların "ölü desəm - ölü deyil - diri desəm, diri deyil" və "yeraltı sular səltənətinin yiyəsi" dedikləri Qorqudun ölməz nəğmələrini insanlara yetirir...

Adam ölməzdən qırx gün qabaq ruh göyərçin donunda bədəni tərk eləyir və uçub Bay Dirəyin yanına gedir. Bay Dirəyin tökülən və yenidən boy atan yarpaqlarında adamların adları yazılıbdı. Ruh da öz yarpağını tapıb onun üstünə qonar. Can isə ...mərhumun ölümündən ancaq qırx gün sonra evi tərk edir...

...Bay Dirəyin gövdəsi boyunca canlar yerə enib qadınların bətninə girər, yeni həyat doğurarlar. Beləcə də heyvanlarda, ya bitkilərdə... Hər nəsnənin özünün çevrəsi var...

...Qoç sümüyü, ya da qoç buynuzu olan yerlərdə yaman ruhlar dolaşmaz; qoç yer üzündə insandan əvvəl yaranan, özü də ən təmiz heyvandır. Həyat gücünün, uğurun, xoşbəxtliyin daşıyıcısıdır o...

...Bu dördguşəli Yeri hər yandan dərya suları yuyur. Həmin dörd cəhətin nişanı isə dörd qülllədir. Amma bəzən də deyirlər ki, qüllələrin yerinə dörd böyük ağac boy atır... Və dünyanın sonu - axır zaman gəlib çatanda bütün dağlar uçulub dağılacaq, bütün dərələr, təpələr hamarlanıb torpaq bərabəri olacaq. Yer üzünü alov bürüyəcək və üfüqdə süzən həmin dörd qüllə qiyamətdən kim xilas olubsa, bir onların gözünə görsənəcək...

...Yerin künc-bucaqlarındakı həmin dörd qüllə yeddi qatlı Göyün dayağıdır. Bu yeddi göy qatında qoltuqları altdan qurşaq bağlamış adamlar yaşayırlar. Yerin altındakı yeddi qatda yaşayanlar isə beldən aşağı qurşaq bağlarlar. Bütün kürreyi-ərz qocaman Göy öküzün buynuzları üstündə dayanır. Göy öküz özü də Çada daşının üstündə durub.

...Danışardılar ki, babam ha yanda isə Sarı arx deyilən bir yer var, həmişə o yerə gedər, oradakı Ata övliya ağaca dua eləyib səcdə qılarmış. Ata övliya ağacı yapma təpənin zirvəsində hələ iki yüz il bundan qabaq naymanlardan olan bir baxşı basdırıbmış. Deyirlər, indi o ağac quruyubdu.

...Dünya bir bütövdür... Onda nə sükunətdə olan var, nə əbədiyyən qalan... Hərəkətsiz bir tək ölülər, bir də qara torpaqdı. Qalan hər nə var, hamısı hərəkət halındadır, başlanğıcından ta sonacan və yenidən başlanğıca... Hər nə varsa - təbiət, adamlar, qalan bütün canlılar, nəsnələr, - hamısının hər yöndən dünyaya bənzəri var...

*("Dekorativnoe iskusstvo SSSR" j., 1980 №8)*